

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 22 may 2024-cü il №37 (2848) https://mod.gov.az Qiyməti 30 qəpik

## İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xamenei həzrətlərinə

Möhtərəm Ayətullah Xamenei həzrətləri,

Dost və qardaş İran İslam Respublikasına və xalqına üz vermiş ağır itki - İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın və digər müşayiət edən şəxslərin helikopter qəzasında faciəli surətdə həlak olması xəbəri bizi olduqca sarsıtdı.

Prezident Seyid İbrahim Rəisinin simasında İran xalqı bütün həyatını ölkəsinə fədakarlıqla və sədaqətlə xidmət etmiş görkəmli dövlət xadimini itirdi. Onun əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır.

Bu hüznlü gündə Uca Allahdan dost və qardaş İran xalqına səbir və dözüm diləyir, kədərinə şərik olduğumuzu bildirir, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 may 2024-cü il

## Azərbaycan Respublikası vətəndaşlarının 2024-cü il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram**:

1. 2006-cı ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1989-2005-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2024-cü il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2024-cü il iyulun 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 may 2024-cü il

# Prezident İlham Əliyev İranın ölkəmizdəki səfirliyində olub, İran Prezidentinin və digər şəxslərin helikopter qəzasında həlak olmaları ilə əlaqədar başsağlığı verib



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də İran İslam Respublikasının ölkəmizdəki səfirliyində olub, İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın və digər müşayiət edən şəxslərin helikopter qəzasında faciəli surətdə həlak olmaları ilə əlaqədar başsağlığı verib.*

AZƏRTAC xəbər verir ki, İran İslam Respublikasının ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili Seyid Cəfər Ağayi dövlətimizin başçısını qarşılayıb.





Azərbaycan Prezidenti matəm kitabına ürək sözlərini yazıb.

Sonra səfirliyin müvəqqəti işlər vəkili ilə söhbət edən Prezident **İlham Əliyev** deyib:

- İran İslam Respublikasının Prezidenti cənab Seyid İbrahim Rəisinin faciəli şəkildə həlak olması bizim hamımızı dərindən sarsıtdı. Onunla bərabər xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan və digər şəxslər faciəli şəkildə həlak olublar. Allah onlara rəhmət eləsin. İran xalqının başı sağ olsun. Bu, böyük itkidir. Bu itki təkcə İran xalqına, dövlətinə üz verməyib, bütün müsəlman aləminə üz verib.

Seyid İbrahim Rəisi böyük dövlət xadimi idi, görkəmli siyasətçi və İran xalqının etibarını qazanmış böyük şəxsiyyət idi. Onunla çoxsaylı görüşlərim hər zaman məndə çox böyük təəssürat izi buraxırdı. Onunla son görüşüm isə tarixi bir görüş idi. Həm o, həm də mən bu görüşü məhz tarixi görüş adlandırmışdıq. Dövlət sərhədində böyük infrastruktur layihəsinin açılışında birgə iştirakımız İran-Azərbaycan əlaqələrinin nə qədər möhkəm olmasından xəbər verirdi, həm xalqlarımıza, həm bütün dünyaya çox açıq mesaj idi ki, biz dostuq, qardaşıq, biz bundan sonra da birlikdə olacağıq. Açılış mərasimindən sonra həm mərhum Prezident Rəisinin, həm də mənim rəsmi açıqlamalarımız çox ciddi siyasi məna daşıyırdı. Hər iki Prezident açıq bəyan etmişdi ki, bu bölgənin gələcək inkişafında bölgədə yerləşən ölkələr fəal iştirak etməlidirlər.

Faciənin baş verməsi, əlbəttə ki, böyük dərddir, həm onun yaxınlarına, həm onu tanıyanlara. Amma təsəlli verən odur ki, o, öz həyatını İran xalqının inkişafına həsr etmişdir. İran dövlətinin milli maraqlarının müdafiə edilməsində onun xüsusi rolu var idi. Həm Prezident vəzifəsində çalışdığı zaman, həm ondan əvvəlki dövrlərdə o, İran xalqının rifahını yaxşılaşdırmağa çalışırdı və milli maraqların müdafiəsində onun böyük rolu olmuşdur.

Bildiyiniz kimi, faciədən əvvəl biz iki saatdan çox birlikdə idik. Bir saatdan çox davam edən ikitərəfli görüş əsnasında bir çox önəmli məsələlər müzakirə edilmişdir. İran-Azərbaycan əlaqələrinin inkişafının gələcək istiqamətləri bir daha təsdiqlənmişdir və hər iki tərəfin güclü siyasi iradəsi bir daha nümayiş etdirilmişdir. Bununla bərabər, biz konkret infrastruktur layihələri haqqında geniş fikir mübadiləsi aparmışdıq, önəmli qərarlar qəbul edilmişdir. O görüşdə iştirak edən şəxslər bunu, əminəm ki, İranın yeni rəhbərliyinə çatdıracaqlar. Əldə edilmiş bütün razılaşmalar, əminəm ki, icra ediləcək. Çünki bu, İran və Azərbaycan xalqlarının iradəsinə söykənir və biz mərhum Prezident Rəisi ilə söhbət əsnasında qəti iradəmizi bildirdik ki, bundan sonra böyük layihələrin sayı çox olacaq, həm ikitərəfli, həm çoxtərəfli formatda.

Əfsuslar olsun ki, gələcək layihələrin icrasını görmək ona nəsib olmadı. Tale ilə hər kəs barışmalıdır. Ancaq yenə də deyirəm, təsəlli verən amil odur ki, öz həyatını İranın inkişafına qurban vermişdir və bizim yaddaşımızda, İran xalqının, Azərbaycan xalqının yaddaşında o, parlaq şəxsiyyət, böyük dövlət xadimi, Azərbaycan dövlətinin və xalqının böyük dostu kimi qalacaq. Bir daha başınız sağ olsun. Allah rəhmət eləsin.

* * *

Seyid Cəfər Ağayi səfirliyə gələrək başsağlığı verdiyinə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib.

## Azərbaycanın müdafiə naziri İran tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov İran İslam Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Məhəmməd Hüseyn Baqeriyə başsağlığı ünvanlayıb.

Başsağlığında deyilir: "Qardaş İran İslam Respublikası Silahlı Qüvvələrinə məxsus helikopterin qəzaya uğraması nəticəsində İran İslam Respublikasının Prezidenti cənab İbrahim Rəisinin və onu müşayiət edən nümayəndə heyətinin həlak olması haqqında xəbər məni dərindən kədərləndirdi.

Faciəvi qəza zamanı bütün həlak olanların yaxınlarının və əzizlərinin kədərinə şərik olduğumuzu bildirir, Allahdan səbir diləyirik.

Ruhları şad, xatirələri əziz olsun.

Allah rəhmət eləsin".

## Müdafiə Nazirliyinin rəhbər heyəti hərbi vəzifəlilərlə görüşüb





Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və müdafiə nazirinin müavini - Quru Qoşunlarının komandanı general-leytenant Hikmət Mirzəyev səfərbərlik hazırlığı üzrə təlim toplanışına cəlb olunmuş hərbi vəzifəlilərlə görüşüblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görüş zamanı general-polkovnik Kərim Vəliyev Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuzda aparılan uğurlu islahatların müsbət nəticələrindən danışıb.

Müdafiə nazirinin birinci müavini general-polkovnik Kərim Vəliyev səfərbərlik hazırlığı və səfərbərlik ehtiyatlarının yaradılması üzrə keçirilən tədbirlərin planlı şəkildə davam etdirilməsi, ehtiyatda olan hərbi qulluqçuların döyüş hazırlığının yüksək səviyyədə saxlanılması məqsədilə təlim toplanışlarının mütəmadi keçirilməsinə xüsusi diqqət yetirilməsinin vacibliyini qeyd edib.

General-polkovnik Kərim Vəliyev hərbi vəzifəlilərin təminatı və keçirilən praktiki məşqlər ilə maraqlanıb. Onların peşəkarlıq səviyyələrinin daha da artırılması, silahlanmaya yeni qəbul edilən silah və döyüş texnikasının effektiv tətbiqi məqsədilə keçirilən təlimlərin real döyüş şəraitinə uyğunlaşdırılması və texnoloji innovasiyalardan istifadə edilməsi ilə əlaqədar müdafiə nazirinin tapşırıqlarını aidiyyəti üzrə vəzifəli şəxslərə çatdırıb.

Təlimlərin keyfiyyətinin daha da artırılması, habelə cəlb olunan şəxsi heyətin peşəkarlığının yüksəldilməsinə dair hərbi hissələrin komandanlıqları qarşısında konkret tapşırıqlar qoyulub.

## “Anadolu Ankası-2024” (“Anatolian Phoenix-2024”) beynəlxalq axtarış-xilasetmə təlimi keçirildi



*Qardaş Türkiyə Respublikası növbəti beynəlxalq təlimə ev sahibliyi etdi. Konya şəhərindəki aviasiya bazasında keçirilən "Anadolu Ankası-2024" ("Anatolian Phoenix-2024") beynəlxalq axtarış-xilasetmə təlimi xoş xatirələrlə yaddaşlarda qaldı. 6-17 may tarixlərində keçirilən beynəlxalq təlimdə Türkiyə və Azərbaycanla yanaşı, Qətər, Səudiyyə Ərəbistanı, Polşa, Rumıniya, Slovakiya dövlətlərinin də aviasiya vasitələri və hərbi qulluqçuları iştirak edirdi.*

Beynəlxalq təlimdə ölkəmizi Hərbi Hava Qüvvələrinin bir qrup şəxsi heyəti, aviasiya vasitələri, həmçinin Hərbi Dəniz Qüvvələrinin hərbi qulluqçuları təmsil edirdi.

Təlimin ilk günü iştirakçı ölkələrin hərbi qulluqçularına "Anadolu Ankası-2024" beynəlxalq axtarış-xilasetmə təliminin məqsədi, ssenarisi, keçiriləcəyi ərazinin relyefi və iqlimi, müxtəlif mərhələlər üzrə icra olunacaq tapşırıqlar, o cümlədən təhlükəsizlik qaydaları barədə açılış brifinqi təqdim olundu. Qeyd olundu ki, uzun illərdən bəri təşkil olunan beynəlxalq təlimdə axtarış-xilasetmə ssenarisinin müxtəlif elementləri icra olunur. Bu elementlərin icra olunmasında əsas məqsədlərdən biri hərbi qulluqçuların bilik və bacarıqlarının təkmilləşdirilməsi, həmçinin iştirakçı ölkələrin hərbi qulluqçuları arasında qarşılıqlı uzlaşma və təcrübə mübadiləsinin təmin edilməsidir.

Çıxış edənlər onu da vurğuladılar ki, real döyüş şəraitinə uyğunlaşdırılaraq hazırlanan "Anadolu Ankası-2024" beynəlxalq təlimində iştirak edən hərbçilər öz praktiki və nəzəri biliklərini sınaqdan keçirir, bacarıqlarını müasir dövrün tələbləri əsasında təkmilləşdirirlər. Həmçinin təlimdə iştirakçıların müxtəlif ölkələrə məxsus yeni nəsil hərbi texnika, silah və təchizat avadanlıqlarından istifadə bacarığı yüksəlir, digər iştirakçı qüvvələrlə birgə fəaliyyətlər zamanı şəxsi heyətin qarşılıqlı uzlaşma qabiliyyəti artırılır. Bildirildi ki, beynəlxalq təlim iştirakçı ölkələrlə Türkiyə Silahlı Qüvvələrinin müxtəlif bölmələri arasında hərbi əlaqələri gücləndirmək, qarşılıqlı koordinasiya işlərini müasir tələblər çərçivəsində qurmaq, planlaşdırma, taktika və digər hərbi fəaliyyətləri təkmilləşdirmək üçün yaxşı fürsətdir.



"Anadolu Ankası-2024" ("Anatolian Phoenix-2024") beynəlxalq axtarış-xilasetmə təlimi çərçivəsində iştirakçı ölkələrin hərbi qulluqçuları müxtəlif epizodlar üzrə tapşırıqlar yerinə yetirdilər. Təlim planına uyğun olaraq, hər gün brifinqlərdə yerinə yetiriləcək tapşırıqlar və onların ardıcıllığı, axtarış-xilasetmə tədbirinin görüləcəyi ərazinin relyefi və digər zəruri məlumatlar verilirdi. Konya şəhərində təşkil olunan beynəlxalq təlimin ilkin mərhələsində təlimə cəlb edilən aviasiya heyətlərinin iştirakı ilə tanışlıq məqsədli birgə uçuşlar həyata keçirildi. Təlimin sonrakı mərhələlərində şərti olaraq terror qruplaşmasının avtomobil karvanının pusquya salınaraq üzvlərinin ələ keçirilməsi, qəzaya uğramış ekipaj üzvünün paraşüt-desant və axtarış-xilasetmə qrupları tərəfindən şərti düşmən arxasında axtarışı, aşkar olunan ekipaj üzvünün yerində sorğulanması və təxliyə edilməsi üzrə fəaliyyətlər icra olundu. Təlim zamanı Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələrindən olan hərbi qulluqçularımız hava, su və yer inteqrasiyalı missiyalarda uğurla iştirak etdilər.



Beynəlxalq təlimin növbəti günlərində "Yüksək Səviyyəli Müşahidəçi Günü" keçirildi. "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə qonaqlara, eləcə də media nümayəndələrinə "Anadolu Ankası-2024" beynəlxalq axtarış-xilasetmə təliminin gedişatı, icra olunan tapşırıqların nəticələri və yerinə yetirilməsi dərəcələri barədə statistik və digər zəruri məlumatlardan ibarət brifinq təqdim olundu. Brifinq başa çatdıqdan sonra beynəlxalq təlimə həsr olunan qısametrajlı videogörüntü qonaqlara nümayiş etdirildi. Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra qonaqlar təlim poliqonuna gedərək "Anadolu Ankası-2024" beynəlxalq axtarış-xilasetmə təlimində iştirak edən ölkələrin hərbçiləri tərəfindən icra olunan müxtəlif epizodlardan ibarət praktiki tapşırıqların yerinə yetirilməsini izlədilər.

Sonda "Yüksək Səviyyəli Müşahidəçi Günü"nün planına uyğun olaraq, Türkiyə Hərbi Hava Qüvvələrinin "Türk Ulduzları" aviaqrupuna daxil olan F-5 tipli təyyarələrinin həyəcanverici nümunəvi uçuşları qonaqlar və media nümayəndələri tərəfindən maraqla izlənildi.

Təlimin bağlanış mərasimi də təntənəli keçdi. Təlim rəhbərliyi "Anadolu Ankası-2024" beynəlxalq axtarış-xilasetmə təlimində iştirak edən ölkələrin hər birinə minnətdarlığını bildirdi və qeyd olundu ki, iştirakçı ölkələrlə qarşılıqlı əməkdaşlıq nəticəsində güclənən əlaqələr bundan sonra da artan xətlə davam edəcəkdir. Daha sonra təlim iştirakçılarına hesabat brifinqi təqdim olundu, rəhbər şəxslər tərəfindən qarşılıqlı xatirə hədiyyələrinin mübadiləsi həyata keçirildi.

Bununla da qardaş Türkiyə Respublikasının Konya şəhərində təşkil olunan "Anadolu Ankası-2024" ("Anatolian Phoenix-2024") beynəlxalq təlimi unudulmaz anlarla hafizələrə köçdü. Mən də öz növbəmdə təlim iştirakçısı olan hərbçilərimizin fikirlərini öyrəndim.

**(Ardı 3-cü səhifədə)**

# "Anadolu Ankası-2024" ("Anatolian Phoenix-2024") beynəlxalq axtarış-xilasetmə təlimi keçirildi




(Əvvəli 2-ci səhifədə)

Baş leytenant Xanlar Rzayev təlim barədə təəssüratlarından danışdı: "Şanlı Azərbaycan Ordusunun hərbçiləri olaraq təlimdə qarşıya qoyulan tapşırıqların icrasında uğurla iştirak etdik. Biz gənc yaşlarımızda öz mütəxəssislərimizdən bu ixtisasın incəliklərini öyrənmişik və bu gün də üzərimizə düşən əsas vəzifə verilən tapşırıqları vaxtında, nöqsansız yerinə yetirməkdir. Bu gün burada keçirilən beynəlxalq təlimdə qardaş Türkiyə Respublikasının və digər iştirakçı ölkələrin Hərbi Hava Qüvvələrinin pilotları ilə qarşılıqlı əlaqədə müxtəlif tapşırıqlar icra etdik. İştirakçıların hər birinin bizə doğma münasibət bəsləməsi hər birimiz üçün böyük stimul və motivasiyaverici amillərdir. Bu cür mötəbər təlimdə iştirakçı olmaq qürurvericidir".

Təbiidir ki, hərbi aviasiya dedikdə səhnəarxası qəhrəmanlarımız olan texniki heyəti də unutmamalıyıq. Bunun üçün də hərbçi pilotlarımızın səmada təhlükəsizliyinin qarantı olan mühəndis heyətindən mayor Rafət Niftiyev ilə həmsöhbət oldum.

"Aviasiyada uçuşun təşkili hərbi pilotlar tərəfindən bilinsə də, əslində, təyyarənin səmaya qalxmasından tutmuş enməsinə qədər təhlükəsizliyin təmin edilməsində xeyli sayda insanın rolu vardır. Belə ki, uçuş prosesi komanda işidir. Onların hər biri öz vəzifəsinə uyğun olaraq hərbi təyyarəni növbəti təhlükəsiz uçuşa hazırlayır. Hərbçi pilotlarımızın təhlükəsizliyinin təmini üçün də hər kəs öz vəzifəsinin öhdəsindən vaxtında və nöqsansız gəlməyə borcludur. Burada ən xırda səhvə belə yer yoxdur. Bunun üçün də texnik və mühəndis heyətinin peşəkarlığı və əzmkarlığı sayəsində hərbi pilotlarımız yüksək nəticəli uçuşlar həyata keçirərək, "Anadolu Ankası-2024" beynəlxalq taktiki-uçuş təlimini də layiqincə başa vurdular. Bu təlimdə əldə olunan uğurların qazanılmasında hər bir kəsin əməyinin dəyəri çox yüksəkdir. Təcrübəli pilotlarımız, texniki heyətimiz və hərbi dənizçilərimizin yerinə yetirdikləri uğurlu tapşırıqlar xalqımızın və dövlətimizin inamını doğrultmaq üçün çox vacib imkandır ki, burada hər kəs əlindən gələnin ən yaxşısını etməyə çalışdı", - deyə zabit bildirdi.

Hərbi Dəniz Qüvvələrinin zabiti kapitan-leytenant Xızır Əliyev də təlim barədə fikirlərini bizimlə bölüşdü: "Hərbi Dəniz Qüvvələrinin şəxsi heyətinin peşəkarlığının və təcrübəsinin artırılması məqsədilə rəhbərlik tərəfindən mühüm işlər görülür. Məlumdur ki, dünyada bütün sahələrdə olduğu kimi, hərbi sahə də gündən-günə yenilənir və yeni tələblər meydana çıxır. Mütəmadi olaraq yeni silah və texnikalar ordumuzun arsenalına əlavə edilir. Hərbi əməkdaşlıq çərçivəsində dünyanın müxtəlif ölkələrində keçirilən təlimlərdə iştirak edən şəxsi heyət müasir dövrün tələblərinə uyğun olaraq yeni hərbi biliklərə yiyələnirlər. "Anadolu Ankası-2024" beynəlxalq axtarış-xilasetmə təlimi də digər ölkələrin hərbi təcrübəsindən yararlanmağımız, eləcə də 44 günlük Vətən müharibəsi zamanı qazanılan təcrübənin iştirakçı ölkələrin hərbçiləri ilə bölüşməyimiz üçün mühüm vasitə oldu. Burada Türkiyə Ordusunun hərbi qulluqçuları ilə yanaşı, digər orduların hərbçiləri ilə də qarşılıqlı əlaqədə müxtəlif epizodlardan ibarət tapşırıqların icrasında iştirak etdik. Bu təlimdə peşəkarlıq çox önəmlidir. Peşəkarlığın qazanılması üçün də şəxsi heyət mütəmadi məşqlər keçmiş, təlimlərdə üzərinə düşən tapşırıqları uğurla yerinə yetirmiş, öz bilik və bacarıqlarını daha da təkmilləşdirmişdir. Uğurlarımız bundan sonra da davam edəcək. Üçrəngli bayrağımızı bundan sonra da qürurla dalğalandırmaqla, komandanlığın və xalqımızın bizə olan etimadını layiqincə doğruldacağıq", - zabit dedi.



**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

# "EFES-2024" çoxmillətli təlimində növbəti tapşırıqlar icra olunub



Müxtəlif ölkələrin hərbi qulluqçularının cəlb olunması ilə Türkiyədə keçirilən "EFES-2024" çoxmillətli təlimində növbəti tapşırıqlar icra olunub.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimin planına əsasən, iştirakçı ölkələrin hərbi qulluqçuları müxtəlif çaplı atıcı silahlardan praktiki atışlar icra ediblər.

Bundan başqa, yaşayış məntəqəsində döyüşün aparılması və şərti düşmənin zərərsizləşdirilməsi, yaralı hərbi qulluqçuya ilkin tibbi yardımın göstərilməsi və onun təxliyə olunması üzrə tapşırıqlar uğurla yerinə yetirilib.

Azərbaycan Ordusunun hərbi qulluqçuları digər iştirakçılarla birgə qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetiriblər.

Qeyd edək ki, qarşılıqlı təcrübə mübadiləsinin aparılması, iştirakçı ölkələrin hərbi qulluqçularının birgə fəaliyyətinin təşkili, qərargah zabitlərinin xəritə üzərində qərar qəbuletmə bacarıqlarının artırılması, həmçinin onların peşəkarlıq və hazırlıq səviyyəsinin daha da təkmilləşdirilməsi məqsədilə keçirilən beynəlxalq təlim mayın 30-dək davam edəcək.





# Artilleriya bölmələrinin döyüş atışlı taktiki təlimi başa çatıb

Quru Qoşunlarının 2024-cü il üçün hazırlıq planına əsasən, artilleriya bölmələri ilə keçirilən döyüş atışlı taktiki təlim başa çatıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimin planına əsasən, daimi dislokasiya məntəqələrindən cəmləşmə rayonlarına çıxarılan bölmələr atəş mövqelərinin tutulması, qurğuların döyüş tətbiqinə hazırlanması, şərti düşmən hədəflərinin aşkar olunaraq dəqiq atəşlə məhv edilməsi, eləcə də qarşıya qoyulan digər tapşırıqları müvəffəqiyyətlə icra ediblər.

Əsas diqqətin hərbi qulluqçuların bilik və bacarıqlarının artırılmasına, komandir heyətinin artilleriya bölmələrinin idarəedilməsi vərdişlərinin təkmilləşdirilməsinə, eləcə də döyüş əməliyyatları zamanı digər qoşun növləri ilə qarşılıqlı əlaqənin təşkilinə yönəldildiyi təlimdə yüksək peşəkarlıq nümayiş etdirilib.

# Mühəndis təminatı üzrə tədbirlərin icrası davam etdirilir



Cari ilin may ayı ərzində azad edilmiş ərazilərdə Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının hissə və bölmələrinin fəaliyyəti nəticəsində 254 hektardan çox ərazi minalardan tam təmizlənib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, işğaldan azad edilmiş ərazilərdə bu günə kimi mühəndis-istehkam bölmələri tərəfindən 37583 hektar ərazi mina və partlamamış döyüş sursatlarından təmizlənib. Ümumilikdə 10463 ədəd piyada əleyhinə, 3318 ədəd tank əleyhinə mina və 12814 ədəd partlamamış döyüş sursatı aşkarlanaraq məhv edilib.

Əsas səylərin azad edilmiş ərazilərdə yaşayış məntəqələri, əkin sahələri, yollar və infrastruktur obyektlərinə yönəldildiyi mühəndis təminatı üzrə zəruri tədbirlər plana uyğun davam etdirilir.





# Azərbaycanın 2031-ci ildə Hərbçilərin Olimpiya Oyunlarına ev sahibliyi müzakirə edilib

Dünya Hərbi İdman Şurasının (CİSM) Balkan, Qaradəniz və Qafqaz ölkələri üzrə idman əlaqələndiricisi Nevzat Varol Milli Olimpiya Komitəsində (MOK) olub.

MOK-dan AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycanın 2031-ci ildə Hərbçilərin Olimpiya Oyunlarına ev sahibliyi etməsi məsələsi müzakirə edilib.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə qurumun MOK-un beynəlxalq idman əlaqələrindən danışıb. O, bu əlaqələrin hər zaman yüksək səviyyədə olduğunu deyib.




Bakıya səfərindən məmnunluğunu bildirən Nevzat Varol Azərbaycanda idmanın inkişafının beynəlxalq aləmə də səs saldığını bildirib.

Azərbaycanın I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, Bakı-2019 və digər mötəbər idman tədbirlərinə uğurla ev sahibliyi etdiyini vurğulayan N.Varol 2031-ci ildə Azərbaycanda Hərbçilərin Olimpiya Oyunlarının keçirilməsi təklifi ilə çıxış edib.

"Beynəlxalq Hərbi İdman Şurası Beynəlxalq Olimpiya Komitəsindən sonra ikinci ən böyük multiidman təşkilatıdır. Hər Yay Olimpiya Oyunlarından bir il əvvəl Hərbçilərin Olimpiya Oyunları keçirilir. Burada əsas məqsədimiz Olimpiya Oyunlarına xidmət etməkdir. Bu günə qədər yeddi dəfə Hərbçilərin Olimpiya Oyunları keçirmişik. Sonuncu dəfə 2019-cu ildə Çinin Uhan əyalətində bu yarış uğurla təşkil olunub. Oyunlar 2023-cü ildə isə Cənubi Afrikada keçirilməli olsa da, onlar bunu 2027-ci ilə qədər təxirə saldılar. Biz artıq yeni layihələr üzərində çalışırıq. İstəyirik ki, 2031-ci ildə hərbçilərin IX Olimpiya Oyunlarını Azərbaycanda təşkil edək. Azərbaycan daha əvvəl I Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunları kimi mötəbər idman tədbirlərinə uğurla ev sahibliyi edib. Bunun üçün də düşünürəm ki, Azərbaycanın bu idman tədbirinə ev sahibliyi etməsi üçün maddi texniki bazası, lazımi infrastrukturu, könüllüləri və təcrübəsi var", - deyə Nevzat Varol bildirib.

MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə isə təklifi müsbət qarşılayıb. Təklifin dəyərləndirilməsi üçün Milli Olimpiya Komitəsinin rəhbərliyi ilə müzakirənin vacib olduğunu vurğulayıb.

Görüşdə komitənin baş katibi Azər Əliyev və idman idarəsinin müdiri Həsənağa Rzayev də iştirak ediblər.



# "79-cu CISM Baş Assambleyası və Konqresi bütün dünyada hərbi idmanda əməkdaşlığa, yeniliyə və mükəmməlliyə ilham verəcək"

*Tanzaniyanın Dar əs-Salam şəhərində Beynəlxalq Hərbi İdman Şurasının (CISM) 79-cu Baş Assambleyası və Konqresi keçirildi. Tədbirdə ölkəmizi Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubunun rəisi polkovnik-leytenant Ramiq Orucovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etdi.*




CISM-in prezidenti polkovnik Nilton Rolimin sədrliyi və dünyanın 82 ölkəsindən nümayəndələrin iştirakı ilə keçirilən sessiyada təşkilatın missiyası, məqsədləri, qlobal miqyasda hərbi idmanın inkişafına yönəlmiş əsas məsələlər müzakirə olundu. Bundan başqa, təşkilatın ötən illərdəki fəaliyyəti və nailiyyətləri haqqında ətraflı hesabatlar təqdim edildi. Sessiya çərçivəsində, həmçinin CISM İdman Siyasətinin formalaşdırılması, o cümlədən 2024, 2025 və 2026-cı illər üçün idman təqvimlərinin təsdiqi və hərtərəfli 5 illik planın hazırlanması müzakirə edildi. Afrika, Amerika, Asiya və Avropadan olan nümayəndələr regional prioritetlər haqqında danışaraq, öz qitələrində hərbi idmanı inkişaf etdirmək üçün birgə fəaliyyət haqqında təcrübə mübadiləsi apardılar. Nümayəndələr arasında yoldaşlıq və əməkdaşlıq ruhunda baş tutan məhsuldar müzakirələrin gələcək günlərdə davamlı tərəqqi və uğur üçün zəmin yaradacağı qeyd edildi. Tanzaniyanın Dar es Salaam şəhərində keçirilən 79-cu CISM Baş Assambleyası və Konqresin bütün dünyada hərbi idmanda əməkdaşlığa, yeniliyə və mükəmməlliyə ilham verəcəyi vurğulandı.

Sessiyanın bağlanış mərasimində 2023-cü ilin nəticələrinə görə CISM üzrə İlin İdmançısı Mükafatları təqdim edildi. Sonra CISM-ə üzv olan ölkələrin nümayəndələri bir-birlərinə hədiyyələr təqdim etdilər.

Qeyd edim ki, 18 fevral 1948-ci ildə Nitsa (Fransa) şəhərində yaradılmış Beynəlxalq Hərbi İdman Şurası (CISM) dünyanın ən böyük multidissiplinar təşkilatlarından biridir. CISM üzv olduğu 140 ölkənin silahlı qüvvələri üçün müxtəlif idman tədbirləri təşkil edir və ən çox idman növünün təmsil olunduğu qlobal idman təşkilatlarından biridir. Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubu 1995-ci ildən CISM-in fəal üzvüdür. Azərbaycan Ordusunun hərbi qulluqçuları bu təşkilat tərəfindən keçirilən Dünya və Avropa çempionatlarında uğurla çıxış edərək 78 qızıl, 66 gümüş və 103 bürünc medal qazanıblar.

**Kapitan**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

# ƏÜO-da bütün növ silah və texnikalara mövsümə uyğun texniki qulluq göstərilir







*Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) birləşmə, hissə və bölmələrində bütün növ silah və texnikalara mövsümə uyğun texniki qulluq göstərilir.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, ƏÜO-nun birləşmə, hissə və bölmələrində silah və texnikaların saz vəziyyətdə saxlanması, təlimata uyğun istifadə və istismar olunması, həmçinin mövsümə uyğun texniki qulluğun göstərilməsi ilə bağlı məşğələlər keçirilib.

Məşğələlər zamanı keçirilən dərslərdə bölmələrin döyüş gücünü artırmaq məqsədilə hər bir silah və hərbi texnikadan düzgün istismar qaydalarına əməl olunmasının vacibliyi diqqətə çatdırılıb və mövsümi tələblərə uyğun olaraq silah və texnikalara texniki qulluğun göstərilməsi, həmçinin hissə və mexanizmlərin dəyişdirilməsi praktiki olaraq şəxsi heyətə göstərilib.



Məşğələlərdən sonra bölmələrdə avtomobil və zirehli texnikalara, aviasiya və hava hücumundan müdafiə vasitələrinə, rabitə avadanlıqlarına, raket-artilleriya silahlarına, atıcı silahlara və döyüş sursatlarına planlı şəkildə mövsümi qulluğun göstərilməsinə başlanılıb.

Qeyd edək ki, texnikalara vaxtında düzgün texniki qulluğun göstərilməsi bölmələrin yüksək döyüş qabiliyyətində saxlanılmasına imkan yaradır.

# Kursantlar idmanda da uğurlar qazanırlar

*Cüdo üzrə Olimpiya çempionu Elnur Məmmədli müsahibələrindən birində demişdi ki, idmançı üçün ən böyük səadət onun qələbəsinə görə təmsil etdiyi dövlətin himninin səslənməsidir. İdmançının dövlətinə ehtiramı olanlar da, olmayanlar da bu himni ayaq üstə dinləyirlər.*



Olimpiya çempionunun dedikləri bir gerçəkliyin ifadəsidir: Vətənə sevgi həmişə ucalıqlarda yaşadılır. Bu sevgini ucalıq məqamında həm də idman yarışları bayraqlaşdırır.




Heydər Əliyev adına Hərbi İnstitutun idmançı-kursantları kimi...

Elnur Məmmədli də, Zemfira Meftahəddinova da, Fərid Mansurov da, Toğrul Əsgərov da, Şərif Şərifov da Azərbaycanımıza belə qürur yaşadıb. Himnimiz səslənəndə - Azərbaycan arenanın mənəvi səyyarəsinə döndüyünə görə onlar da kövrəliblər. Bu duyğuları zamanında Heydər Əliyev adına Hərbi İnstitutun idmançı-kursantları da yaşamaq istəyi ilə məşq edirlər, daha geniş miqyaslı yarışlarda iştirak etməyə qərarlı olublar...

Heydər Əliyev adına Hərbi İnstitutun idman kafedrasının baş müəllimi mayor İntiqam Həmidov bildirdi ki, institutda idmanın müxtəlif növləri üzrə məşqlərə gərəkli texniki şərait yaradılıb. Kursantlar günün nizam qaydalarına riayət etməklə məktəb rəhbərliyinin müəyyənləşdirdiyi müxtəlif bölmələrdə peşəkar məşqçi-müəllimlərin rəhbərliyi ilə məşq edirlər. İdmançı-kursantlarımız respublika miqyaslı yarışlarda uğurlar qazanırlar. Onlar bu ilin mayında keçirilən yarışlarda da qürurverici qələbələrə nail olublar.

İdmançı-kursantlar iştirak edəcəyi hər yarışa təhsil aldığı hərbi institutun idman şöhrətinin cəfakeşi kimi, hərbi qətiyyəti ilə, hərbi əzmkarlığı ilə, hərbi məsuliyyəti ilə hazırlaşırlar.

Mayın 5-də "Küləyə qarşı" adlı Bakı marafonu keçirildi. Bu tədbirdə institutun komandası da iştirak etdi. 21 kilometrlik məsafəni ilk qət edənlər sırasında kursant Riad Əliyev və kursant Araz Əhmədov da oldular. 18500 iştirakçı arasında finişə tez çatan iştirakçılarla bir sırada onlar da təltif edildilər.

Kursant Riad Əliyev Neftçala rayonundandır, əvvəllər beşnövçülüklə məşğul olub. Yarışda mayor İntiqam Həmidovun məsləhəti ilə iştirak edib. Riad dedi ki, yarış ərəfəsində Zığ yolunda məşq edirdik. Yarışda finişə 4-5 kilometr qalmış hiss etdim ki, ilklər sırasında ola bilərəm. Dözüm, həvəs və hərbçi məsuliyyəti niyyətimi gerçəkləşdirdi.

Riad Əliyevə də, Araz Əhmədova da medal və sertifikat təqdim edildi...




Respublikamızda böyük tarixi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş müxtəlif yarışlar keçirilib. Güc strukturları arasında sərbəst güləş üzrə turnirdə institutun müxtəlif çəki dərəcələrini təmsil edən 17 idmançısı yarışıb. İdmançı-kursantları bu yarışa polkovnik-leytenant Nazim Əlicanov və kapitan Qanboy Yəhyayev hazırlayıb. İdmançılar turnirdə 8 medal qazanıblar.

Aqşin Qurbanov Zaqatalanın Aşağı Tala kəndində anadan olub. 2015-ci ilə kimi orada yaşayıb, təhsilini Bakıdakı 54 saylı orta məktəbdə davam etdirib. Bu illərdə sərbəst güləşlə məşğul olub. "Təhsil" İdman Cəmiyyətində Əlisa Abbasovun qrupunda məşq edib. Müxtəlif yarışların iştirakçısı olub. 2-ci dərəcəli idmançıdır. Bu turnirdə 3 görüş keçirib, hər üçündə də qalib gəlib: Polis Akademiyasının güləşçisinə də (14:4), Fövqəladə Hallar Nazirliyinin güləşçisinə də (8:2), Polis Akademiyasının digər güləşçisinə də (8:4). Aqşin final görüşünü xatırladı:

- Birinci hissədə 4:2 hesabı ilə qalib gəlmişdim. Rəqibim də güclü güləşçi idi. Fasilədə məşqçim mənə bir qədər təmkinlə güləşməyi, daha çox əksfəndlərdən istifadə etməyi məsləhət gördü. Mən xalları fəndlərlə qazanmışdım, rəqibim məni döşəkdən çıxartmaqla daha 4 xal qazandı. Uduzurdum. Final görüşünün sonuna 20 saniyə qalmışdı. İki ardıcıl fənd işlətdim. Nəticədə 8:6 hesabı ilə qalib gəldim. Yarış bitincə baxışlarım məşqçimi axtardı. Bu anları yaşamaq necə xoş idi! Könlümdən daha böyük miqyaslı yarışların da qalibi olmaq keçir. Yaxın vaxtlarda zabit olacam, qoşunlarda xidmətdə, hərbi hissəmizdə əsgərlərimlə birlikdə məşq edəcəm. Zabit kimi daha böyük yarışların qalibi olmaq niyyətindəyəm. İstəyirəm ki, həmin yarışlarda qalib əsgərlərimi təbrik edim, əsgərlərim qalib komandirlərini təbrik etsinlər.




Bu turnirdə daha iki idmançı-kursant da (Elman Cahangirli, Yaqub Ənvərli) qızıl medala layiq görülüb.

Gənclər və İdman Nazirliyi ilə hapkido döyüş sənəti (Koreya) federasiyasının birgə təşkilatçılığı ilə Bakı açıq çempionatı keçirildi. İdmançı-kursantları bu yarışa idman kafedrasının müəllimləri - kapitan Eldar Qurbanov və məşqçi, dəfələrlə dünya çempionu olmuş baş leytenant Orxan Məmmədli hazırlamışdılar. Baş leytenant Orxan Məmmədli dedi ki, biz həmişə hər yarışa ciddi hazırlaşırıq. İdmançı-kursantlarımızın belə yarışlarda təcrübəsi olsa da, onların texniki hazırlığını həmişə diqqətdə saxlamışıq. İdmançı fiziki baxımdan güclü ola bilər, ancaq texniki hazırlığı yüksək deyilsə, qalib gələ bilməz. Özüm yarışlara hazırlaşanda da "beş dəqiqə" prinsipinə ciddi əməl etmişəm - müddətdən beş dəqiqə artıq məşq etməli. Bu prinsip həmişə uğur gətirib.

Bu yarışda 2 yaş qrupu üzrə iştirak etdik. Şağan Olimpiya İdman Kompleksində keçirilən bu çempionatda 25 idmançı ilə təmsil olunmuşduq, **25 medal qazandıq - 13 qızıl, 4 gümüş, 8 bürünc**. Yəni, idmançılarımızın hamısı fəxri kürsüdə təmsil olundu!



Emil Cəfərov Ağstafada anadan olub. Orta məktəbdə oxuyanda karate ilə məşğul olub. Hərbi İnstituta daxil olduqdan sonra idmanın hapkido növünə marağı olub. Kifayət qədər titula malik olan Orxan Məmmədlinin rəhbərliyi ilə məşqlərə başlayıb. Karate də, hapkido da idmançıdan fiziki, texniki hazırlıqla bir sırada son dərəcədə çəldlik də tələb edir. Orxan müəllim yetirmələrinə bunu həmişə ilk məşqin ilk təzisi kimi aşılayır, məşqlər bundan sonra başlayır: fiziki hazırlıq, texniki hazırlıq, iradi keyfiyyətlərin formalaşması... Emil də bu məşq sistemi ilə formalaşıb.

- Bu yarışa qədər respublika miqyaslı müxtəlif yarışlarda 4 dəfə iştirak etmişdim, qələbə qazanmışdım. Bu yarış mənim kursant kimi son yarışım olacaqdı, son yarışımda da qalib olmaq istəyirdim. Tatamiyə bu niyyətlə çıxmışdım. Rəqibim "Alpturan" klubunun idmançısı Ruslan Məmmədli də kifayət qədər güclü idmançı idi. İlk raundda üstünlüyü ələ ala bildim, ardıcıl xallar qazandım. Birinci raundun sonlarına yaxın Ruslan görüşü davam etdirmədi, mən qələbə qazandım.

Baş leytenant Orxan Məmmədli yetirməsinin qələbəsinə təkcə fiziki və texniki hazırlığın nəticəsi demədi, onu həm də niyyətin qələbəsi adlandırdı.

Əli Məhəddinov Kürdəmirdəndir. Cəmşid Naxçıvanski adına hərbi liseyi bitirib, indi Hərbi institutun IV kurs kursantıdır. Orta məktəbdə də, liseydə də yunan-Roma güləşi ilə məşğul olub, müxtəlif yarışlarda iştirak edib. Hərbi İnstitutda idmanın hapkido növü ilə məşğul olmağa başlayıb: maraq istəyə, istək sevgiyə çevrilib...

- Birinci kursda respublika birinciliyində III yeri tutmuşdum. Sonrakı illərdə I yeri tutdum. Bu yarışda da qalib gəlməyə niyyətli idim. İlk döyüşüm kursant yoldaşım Cəfər Cəfərovla oldu, qalib gəldim. Finalda 2023-cü ildə İtaliyada keçirilən Avropa çempioanatının qalibi olmuş Məhəmməd Məmmədovla qarşılaşacaqdım. "Alpturan" komandasının üzvü güclü idmançı idi. Müəllimimizin bir kəlməsi məni qələbəyə tam səfərbər etmişdi: "Sən hərbçisən!". Qalib gəldim. Qürurlanıram ki, kursant olaraq son yarışımda məğlub olmadım...

...Kursantlar idmanda da uğurlar qazanırlar. İdmançı-kursantlar yaxın gələcəkdə hərbçi idmançıların sırasında Ordumuzun idman şərəfini də qoruyacaqlar.

Qalib kursantlarımızın uğurlarını davam etdirəcək idmançılarımız var. İnstitutun idman-



çı-kursantları yaxın gələcəkdə zabit kimi xidmət edəcək, idman uğurları qazanacaq, institutun idman şöhrətini sədaqətlə davam etdirəcəklər.

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Şəhidlərimizin xatirəsinə həsr olunan anım mərasimləri keçirilib



Torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə yüksələn Azərbaycanın Milli Qəhrəmanı Mərifət Nəsibov, Ayaz İsmayılov və Amil Tanırverdiyevin xatirəsinə həsr olunan anım mərasimləri keçirilib.

Müdafiə Nazirliyinin nümayəndələri, şəhidlərin ailə üzvləri, yaxınları, döyüş yoldaşları, məktəblilər, eləcə də digər qonaqların iştirak etdiyi mərasimlərdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirlər çərçivəsində şəhidlərimizin məzarları ziyarət olunub, xatirələrinə dualar oxunub.

Çıxış edənlər torpaqlarımızın azadlığı uğrunda gedən döyüş əməliyyatlarında igid oğullarımızın göstərdikləri qəhrəmanlıq və şücaət nümunələrindən, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində rəşadətli ordumuzun düşmən üzərində qazandığı parlaq Qələbədən söz açıblar.

Sonra şəhidlərimizin ömür və döyüş yoluna həsr olunan videoçarxlar nümayiş olunub.

Şəhidlərin ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Anım mərasimlərində şəhidlərimizə həsr olunan şeirlər, vətənpərvərliyi və qəhrəmanlığı tərənnüm edən musiqilər səsləndirilib.

Tədbirlərdə, həmçinin "Əsgərə məktub" layihəsi çərçivəsində Vətən müdafiəçilərinə məktublar ünvanlanıb, hərbi təhsil müəssisələrinə qəbul qaydaları barədə ətraflı məlumatların əks olunduğu bukletlər paylanılıb.



* * *

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində Birinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalan Ayaz İsmayılovun xatirəsinə həsr olunmuş anım mərasimi keçirildi.

Mərasimdə şəhidin ailə üzvləri, dostları, Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri, eləcə də digər şəhid ailələri iştirak etdilər.



Anım mərasimini giriş sözü ilə açan baş leytenant Elçin Salmanov Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfərin tarixi əhəmiyyətindən, ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə igid oğullarımızın göstərdiyi şücaətlərdən danışdı: "Dəmir Yumruq ətrafında birləşərək yaradılan xalq-ordu birliyi və hərbçilərimizin keçdiyi şanlı döyüş yolu sonrakı nəsillərə nümunə olacaq. Bölgənin ən güclü ordusu olan Azərbaycan Ordusunun igid oğulları unudulmaz, əbədi tarix yazdılar. Azərbaycan əsgərinin parlaq qələbəsinin neçə-neçə illər sonra da dillərdə qalacağına əminik".

Daha sonra mərasim iştirakçılarına şəhidin həyat və döyüş yoluna həsr olunmuş videoçarx nümayiş olundu.

Mərasimdə çıxış edənlər şəhidin şərəfli həyat və döyüş yolundan söz açdılar. Birinci Qarabağ müharibəsində torpaqlarımızın azadlığı uğrunda şəhid olanların şərəfli ömür və döyüş yolundan söz açanlar bildirdilər ki, onların vətənpərvərlik və mübarizliyi daim gənclərə örnək olacaq, xatirələri hər zaman uca tutulacaq.

Şəhidin ailə üzvləri və yaxınları göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

Anım mərasimində şəhidlərimizə həsr olunan şeirlər, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri tərəfindən qəhrəmanlığı, vətənpərvərliyi tərənnüm edən musiqilər səsləndirildi.

**Baş leytenant**
**Elvin VƏTƏNDUST**
**"Azərbaycan Ordusu"**

# "Ehtiyat zabit hazırlığı" kursunun növbəti buraxılış mərasimi keçirildi



Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində növbəti "Ehtiyat zabit hazırlığı" kursunun başa çatması münasibətilə mərasim keçirildi.

Mərasimdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, ölkəmizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Polkovnik Mənsum Əhmədov Müdafiə Nazirliyi rəhbərliyinin təbriklərini çatdırdı və məzunlara gələcək xidmətlərində uğurlar arzuladı. "Bu gün Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində əlamətdar bir gündür. Sizlər sertifikat alaraq xidmətinizi davam etdirmək üçün rəşadətli Azərbaycan Ordusunun müxtəlif hərbi hissələrinə yola salınacaqsız. Tədris dövründə aldığınız biliklər qoşunlara yeni bir nəfəs, ruh gətirəcək. Siz gənc zabitlər öz üzərinizə düşən vəzifələri layiqincə yerinə yetirməlisiniz. Nümunəvi xidmətiniz və yüksək mənəvi işgüzar keyfiyyətlərinizlə Azərbaycan zabitinin şərəfli adını daha da yüksəklərə qaldırmalısınız. Ordu dövlətin suverenliyini və ərazi bütövlüyünü təmin etmək üçün əsas qüvvədir. Ona görə də ordu quruculuğu dövlət quruculuğunun tərkib hissələrindən biridir".

- Bu gün Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərdiyi xüsusi diqqət və qayğı nəticəsində ordumuz daha da inkişaf edir. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında başlayan və rəşadətli ordumuzun qələbəsi ilə nəticələnən şanlı Vətən müharibəsində məğrur döyüşçülərimiz cəmi 44 gün ərzində illərin torpaq həsrətinə son qoydu, şəhidlərimizin qisasını aldı və respublikamızın ərazi bütövlüyünü bərpa etdilər.

Azərbaycan Ordusu üçün müasir tələblərə cavab verən hərbi qulluqçuların hazırlanması ölkəmizin müdafiə qüdrətinin artırılmasına xidmət edən mühüm amillərdəndir. Xidmət edəcəyiniz hərbi hissələrdə hər zaman təhsil aldığınız və hərbi biliklərə yiyələnməyinizdə əməyi olan komandirlərinizi, o cümlədən zabit-müəllim heyətini unutmamalı, Təlim və Tədris Mərkəzinin adını öz xidmətinizlə daim uca tutmalısınız. Bir daha "leytenant" hərbi rütbəsi və sertifikat almağınız münasibətilə hər birinizi təbrik edir, xidmətinizdə müvəffəqiyyətlər arzulayıram. Xidmətiniz daim parlaq və uğurlu olsun.



Daha sonra kurs birincisi leytenant İsmayıl Qafarlı çıxış etmək üçün tribunaya qalxdı. "Kursu müvəffəqiyyətlə bitirərək kurs birincisi olmağımla



hədsiz sevinc və qürur hissi keçirirəm. Sevincliyəm, ona görə ki, kurs müddətində komandirlərimizin və zabit-müəllim heyətinin bizə öyrətdikləri nəzəri və praktiki bilikləri yaxşı mənimsədik. Qürurluyam ona görə ki, uşaqlıq illərindən arzusunda olduğum hərbi peşəyə sahib oldum. Fürsətdən istifadə edərək, özüm və kurs yoldaşlarım adından qısa müddət ərzində bizim hazırlığımıza zəhmət sərf etmiş zabit-müəllim heyətinə və bölmə komandirlərimizə dərin təşəkkürümüzü bildirir və onları əmin edirik ki, qoşunlarda layiqli xidmətimizlə hər zaman başlarını uca edəcəyik. Kursda aldığımız hərbi tərbiyəni, nəzəri bilikləri və praktiki təcrübəni xidmət illərində yorulmadan tətbiq edəcək, döyüş hazırlığımızı daim yüksəldəcəyik. Sizi əmin edirik ki, müstəqil Azərbaycanımızın ərazi bütövlüyünü göz bəbəyimiz kimi qoruyacaq, Azərbaycan Ordusunun qəhrəmanlıq ənənələrinin davamçıları olacağıq.

Çıxışlardan sonra məzunlara sertifikatlar təqdim olundu və xatirə şəkilləri çəkdirildi.

Sonda isə hərbi qulluqçuların tribuna önündən təntənəli keçidi oldu.

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

# Hərbi hospitalda tədbir keçirildi





*Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə hərbi hissə və birləşmələrdə mədəni-kütləvi tədbirlərin keçirilməsi hərbi qulluqçuların vətənpərvərlik ruhunun yüksəldilməsinə, milli-mənəvi dəyərlərin geniş təbliğinə və öyrənilməsinə xidmət edir. Bu məqsədlə vətənpərvərlik mövzusundakı tədbirlərə üstünlük verirlər. Tarixi, qədim adət və ənənələrimizi yaşadan bayram günləri, elm və incəsənət xadimləri ilə keçirilən görüşlər həmişə xoş ovqatla qarşılanır.*

Mərkəzin əməkdaşlarının "N" hərbi hospitalında təşkil etdikləri tədbirdə öncə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Dövlət Himni səsləndirildi.

Mərkəzin əməkdaşları müasir Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi



Heydər Əliyevin həyat və fəaliyyəti haqqında ətraflı məlumat verdilər. Qeyd olundu ki, Ulu Öndərin həyat və fəaliyyəti Vətənimizə, xalqımıza həsr olunmuşdur. Azərbaycan tarixinin önəmli dövrü Heydər Əliyevin adı ilə bağlıdır. Hakimiyyətdə olduğu müddət ərzində Ulu Öndər Azərbaycan dövlətini inkişaf etdirərək dünya dövlətləri səviyyəsinə çıxarmışdır, Azərbaycanın müstəqilliyini əbədi və dönməz etmişdir. Onun böyük siyasi xəttini Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev uğurla davam etdirir. Azərbaycan iqtisadi, siyasi, hərbi, mədəni, sosial sahələr üzrə daha böyük uğurlara, qələbələrə imza atmışdır. Ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam təmin olunmuşdur. Bu böyük qələbədən ruhlanan xalqımız və dövlətimiz Ulu Öndər Heydər Əliyevin yaratdığı azərbaycançılıq ideologiyasına sadiq qalaraq daha böyük ucalığa doğru inamla addımlayır.

44 günlük Vətən müharibəsində hərbi həkimlərin göstərdikləri xidmətlər də həmişə yüksək qiymətləndirilir. Onlar Vətən müdafiəçilərinin sağlamlığının keşiyində həmişə məğrur dayanıblar. Onların göstərdikləri yüksək tibbi xidmət nəticəsində həyatı xilas edilən yüzlərlə hərbi qulluqçumuz xidmət yerlərinə geri qayıdıb.

Tədbirin sonunda Mərkəzin "Vətən uğrunda" ansamblının konsert proqramı həmin xoş ovqat yaratdı.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

## Nümunəvi xidmət

# "Xidmətimi məsuliyyətlə yerinə yetirirəm"

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Rəşad Allahverdiyev təcrübəli sürücülərdəndir. Rəşad ilk dəfə hərbçi olmaq arzusuna düşəndə torpaqlarımızın 20 faizi erməni silahlı birləşmələrinin nəzarəti altında idi. Ölkəmizdə müharibə ab-havası vardı. Ordumuz Ermənistanla və işğal olunmuş ərazilərdə düşmənlə təmas xəttində dayanırdı. Onun doğma rayonu da düşmənin nəzarətində idi. Doğmalarından və yaxınlarından Ağdam haqqında çox eşitmişdi. Erməni işğalında qalmış torpaqlarımızı azad görmək Rəşadın ən böyük arzusu idi. Bir azərbaycanlı kimi, o da torpaqlarımızın azad edilməsinə öz töhfəsini vermək istəyirdi. Bunun üçün də hərbçi olmaq qərarına gəldi.



Kiçik çavuş Rəşad Sahil oğlu Allahverdiyev müddətli həqiqi hərbi xidmətini cəbhə bölgəsində keçirib. Düşmənlə üz-üzə xidmət etməyin nə qədər məsuliyyətli olduğunu görmüşdü. Buna görə də Vətənin müdafiəsində dayanmaq qərarını vermişdi. O, bu dəfə sürücü kimi xidmət etməklə ordumuza daha yaxşı xidmət göstərəcəyinə əmin idi. Çünki avtomobilə uşaq yaşlarından maraq göstərirdi. Avtomobili idarə etməkdən başqa, Rəşad onun təmiri ilə də məşğul olurdu. Belə olan halda xidmətini də sürücü kimi davam etdirmək istəmişdi.

Rəşadla qısa söhbətimizdən məlum oldu ki, o, Aprel döyüşlərində də iştirak edib. Sürücü kimi üzərinə düşən bütün tapşırıqları vaxtında yerinə yetirib. Hətta düşmənin nəzarətində olan yollarla ön mövqelərə sursat və digər ləvazimatları vaxtında çatdırıb. Bir neçə dəfə təhlükəli anlarla da üzləşib. Buna baxmayaraq, o, avtomobillə göstərilən ünvana vaxtında yetişib.

27 sentyabr 2020-ci ildə cəbhədə yenidən vəziyyət gərginləşdi. Düşmən hücumlarının qarşısını almaq məqsədilə Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev cəbhə boyu hücum edən düşmənin qarşısını almaq və əks-hücuma keçmək barədə ordumuza əmr verdi. Döyüşlər başladığı ilk gündən Rəşad Allahverdiyev idarə etdiyi yanacaqdaşıyan maşını ilə cəbhədə olan döyüş texnikalarını yanacaqla təmin etdi.

Rəşad bu gün də sürücü kimi xidmətini davam etdirir. Onunla avtomobil parkında görüşəndə çıxışa hazırlaşırdı. Park növbətçisi tərəfindən təlimat alıb avtomobilin sazlığını nəzərdən keçirirdi. Sonda "Mən xidmətimi məsuliyyətlə yerinə yetirirəm", - deyərək yoluna davam etdi.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### İranda helikopterin qəzaya uğraması nəticəsində azı 8 nəfər həlak olub



İran Prezidenti İbrahim Rəisinin olduğu helikopterin qəzaya uğraması nəticəsində azı 8 nəfər həlak olub.

Bu barədə "Tasnim" agentliyi məlumat yayıb.

Məlumata görə, helikopterin göyərtəsində xarici işlər naziri Hüseyin Əmir Abdullahiyan, Şərqi Azərbaycan əyalətinin qubernatoru Malik Rahmati və Təbriz şəhərinin cümə imamı Məhəmməd Ali əl-Haşim, İslam İnqilabı Keşikçiləri Korpusunun generalı Mehdi Musəvi də olub.

Ekipajda iki pilot və bir texniki işçi olub.

İranın vitse-prezidenti Möhsün Mənsuri İbrahim Rəisinin və onun nümayəndə heyətinin helikopter qəzasında həlak olması ilə bağlı xəbərləri təsdiqləyib.

### Pakistan İraqa "JF-17" qırıcıları və təlim təyyarələri tədarük edəcək



Pakistan öz istehsalı olan 12 ədəd "JF-17" Thunder qırıcısının və eyni sayda "MFI-395 Super Mushshak" təlim təyyarəsinin tədarük edilməsi üçün İraqla saziş imzalayıb.

Tədarük əməliyyatının məbləği 1,8 milyard dollar təşkil edir. Məlumata əsasən, sözügedən qırıcıların və təlim təyyarələrinin tədarükü haqqında saziş İslamabaddakı danışıqlar zamanı imzalanıb.

"JF-17" Thunder Çin və Pakistan tərəfindən birgə işlənərək hazırlanıb və onun istehsalına 2009-cu ildə başlanılıb. Qırıcı sürətini saatda 2205 kilometrədək artırmaq qabiliyyətinə malikdir. O, "hava-hava" və "hava-yer" təyinatlı raketləri və digər silahları daşıya bilir.

"JF-17" qırıcıları hazırda Pakistan Hərbi Hava Qüvvələrinin əsas qırıcı təyyarələri hesab olunur və Çin istehsalı olan "F-7" təyyarələrinin köhnəlmiş parkını, habelə ölkənin aviasiya xidmətində olan Fransa istehsalı "Mirage III" və "Mirage V" modellərini əvəz etmək üçün hazırlanıb. Çin-Pakistan istehsalı olan bu qırıcılar, həmçinin Myanma və Nigeriya Hərbi Hava Qüvvələrinin parkına qəbul edilib.

### ABŞ Ukraynaya daha bir "Patriot" sistemi göndərmək istəyir



ABŞ Ukraynaya daha bir "Patriot" hava hücumundan müdafiə sistemi göndərə bilər.

Bu barədə "Bloomberg" agentliyi məlumat yayıb.

Agentliyin məlumatına görə, avropalı müttəfiqlər də öz ehtiyatlarından əlavə hava hücumundan müdafiə sistemləri göndərmək planları üzərində işləyirlər, onların sayı göstərilmir.

Ukrayna Prezidenti Volodimir Zelenski ABŞ Dövlət katibi Antoni Blinkenlə görüşündə Xarkov vilayətini qorumaq üçün iki "Patriot" sistemi istəyib. Zelenski Ukraynanın hava hücumundan müdafiə sisteminin gücləndirilməsinin təcili ehtiyacına diqqət çəkib, çünki onun fikrincə, hava hücumundan müdafiə sistemləri və vasitələri müdafiə qüvvələri üçün ən böyük çatışmazlıqdır.

**AZƏRTAC-ın materialları əsasında**

*Əsgər dostluğu*

# Əsgər dostu - ömür dostu



"N" hərbi hissəsində bir-birinə sanki doğmaymış kimi münasibət göstərən hərbi qulluqçular diqqətimizi çəkdi. Komandirlərindən soruşanda onların dost olduqlarını bildirdi. Biz də yaranan fürsətdən istifadə edib, cəsur əsgərlərimizə yaxınlaşdıq. Dostluq haqqında fikirlərini bizimlə bölüşən ilk həmsöhbətim əsgər Anar Rzayev oldu. "Bir deyim var ki, dost çox olmaz. Lakin mən bu fikirlə qəti olaraq razı deyiləm. Çünki qəlbən təmiz, səmimi, mehriban insanların həyatında dostu çox olar. Amma bu o demək deyil ki, bu cür olan insanlarla mütləq dost olmalısan. Dostunu seçəndə də özünə uyğun birini seçməlisən. Dost - sənin tamamilə oxşarın olmalıdır. Ona görə də qəlbinə yaxın olan, səni başa düşən, səhvini ortamda yox, kənarda üzünə deyən insanla dostluq etmək lazımdır. Dostluq haqqında çox danışmaq olar. Bu cür dostları hərbi xidmətim zamanı tapdığım üçün çox sevinirəm. Bilirik ki, əsgəri dostluq ömürlük olur. Rəşadətli Azərbaycan Ordusunun sıralarında xidmət etdiyimiz zaman hər hansısa bir çətinliyimiz yarananda bir-birimizə dəstək olmuşuq. Çətinlik dedikdə, əlbəttə ki, bu, tək xidmətimizlə əlaqəli deyil. Çünki Müdafiə Nazirliyinin rəhbərliyinin diqqət və qayğısı sayəsində bütün sosial-məişət şəraitimiz olduqca yüksək səviyyədədir. Peşəkar komandirlərimiz isə hər birimizə doğma münasibət bəsləyirlər. Bu cür rəftar və qayğının qarşılığında üzərimizə düşən yeganə vəzifə - torpaqlarımızın müdafiəsində mətin dayanmaqdır. Keçirilən dərs, məşğələ və təlimlər zamanı əldə etdiyimiz yüksək döyüş qabiliyyəti bunu deməyə əsas verir", - deyə Anar Rzayev dedi.

Bakı Dövlət Universitetinin məzunu əsgər Əli Cəbrayılzadə isə vurğuladı ki, dostluğun ən əsas şərtlərindən biri də vəfalı olmaqdır. "Dostluqda, əlbəttə ki, çəkişmələr də baş verə bilər. Lakin buna baxmayaraq, dost dosta qarşı hər zaman vəfalı yanaşmalıdır. İstehza etməməli, sərt davranmamalı, təvazökar olmalı, təkəbbürlülükdən uzaq olmalıdır. Yaranan mübahisəli halları uzatmamalı, hətta çalışmalıdır ki, bu cür məsələlər olmasın. Ən vacib amillərdən biri də onlar arasında olan sirr və əmanətdir. Çünki dost dostun sirrini ölənə kimi gizlətməli, əmanəti isə göz bəbəyi kimi qorumalıdır. Bunlarla yanaşı, dost dostun həmişə yaxşılığını istəməli, onu həvəsləndirməli və irəli getməyinə dəstək olmalıdır. Ordu sıralarında xidmət etdiyim zaman əldə etdiyim digər müsbət xüsusiyyətlərdən biri də bu cür dostluqları qazanmağımdır. Əminəm ki, xidmət müddətimi başa vurduqdan sonra da onlarla münasibətimizi davam etdirəcəyik".

- Əsl dost hər insana lazımdır və belə dostu özümüz qazanmalıyıq, - deyə əsgər Tamerlan Muradov söhbətimizə qoşuldu. - Bir insanın dostu olduğu üçün çox şanslıdır. Belə olduğu təqdirdə dostunun qədrini bilməli və hər zaman onun yanında olmalıdır. Xırda problemlərə görə münasibəti korlamamalıyıq. Bir-birimizə hər zaman köməklik göstərməliyik, çətinliyə düşən zaman kömək əli uzatmalıyıq. Ana Vətənimizin müdafiəsində olduğum zaman çoxlu dostlar qazanmışam. İlk növbədə, təcrübəli komandirlərimizin, daha sonra isə dostlarımın sayəsində xidmətimdə heç bir çətinlik çəkməmişəm. Mən də öz növbəmdə bu cür dostluğa sadiq qalmağa və komandirlərimizin bizlərə olan etimadını doğrultmağa çalışacağam.

**Kapitan**
**Orxan HÜSEYNLİ,**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

*Maraq dünyamız*

# Farafra vahəsi



Qədim dövrlərdən bəri öz görünüşünü mümkün qədər qoruyub saxlaya bilən Misirin yaşayış məntəqələri arasında yeganə məkan - Əl-Qəsr kəndi ilə seçilən Farafra vahəsidir.

Farafra vahəsi - Bahariyədən Daxlaya gedən yolda yerləşir və bu gün də Böyük səhrada ən ucqar və həyat olan ada olaraq qalır.

Farafra vahəsi min ildən artıqdır ki, mövcuddur. Bunun sayəsində o, dəfələrlə ən mühüm tarixi hadisələrin şahidi olmuşdur ki, bunun sübutu həm Əl-Qəsr kəndində, həm də onun ətrafında rast gəlinən tikililərdir. Məsələn, Roma dövründə burada bir qala ucaldılmış və bu günə qədər qismən qorunub saxlanılmışdır. Bu qala karvanları köçərilərin hücumlarından qorumuş, daha sonra dini inanclarına görə Roma hakimiyyəti tərəfindən təqib edilən misirli koptlar Farafrada gizlənmişdilər.

Əl-Qəsrdə təxminən 6000 bədəvi yaşayır. Kərpic evlər və onların arasından keçən dar küçələr qonaqlara ənənəvi Misir memarlığının ruhunu hiss etməyə imkan verir.

Farafra, həmçinin bulaqları ilə də məşhurdur; burada yüzdən çox bulaq var, bəziləri kənd təsərrüfatının ehtiyacları üçün istifadə olunur. İlk hamamlar burada romalılar tərəfindən təchiz edilmişdir. Bundan əlavə, kəndin yaxınlığında Bir Sita və Bir Sabba adlanan isti bulaqlar, həmçinin çoxlu quşların məskunlaşdığı Əbu Noss gölü var.

**Ağ səhra - yatmış okean**

Ağ səhra, Böyük səhranın (Saharanın) şərqində yerləşən, təxminən 300 kv.m. sahəni əhatə edən kiçik bir ərazidir. Bahariyə və Farafra vahələri arasındakı yolun üzərində yerləşir. Nil çayının qərbində geniş ərazini əhatə edir.

Ağ səhra karst mənşəli təbiət abidələri ilə zəngindir. Milyon illər öncə səhra dənizin dibi olmuşdur. Səhranın ağ olmasına səbəb dəniz mikroorqanizmlərin qalıqlarıdır. Ərazidə baş verək küləklər səhranın səthini sanki başqa planetə bənzədir.

Turistlər arasında Ağ Səhra məşhurdur və qeyri-adi qaya quruluşlarına görə də sevilir. Qeyri-adi qaya birləşmələri və həqiqətən ağ qumlar sarı səhra ilə qəribə bir şəkildə mənzərə meydana gətirir. Buradakı qayalar inanılmaz çalarlarla göz qamaşdırır - mavi, çəhrayı, narıncı, günəş batanda xüsusilə təsiredici görünür, gecələr isə qumlar qarı xatırladır. Əgər ərazi isti hava kütləsi ilə əhatə



olunmasaydı, Arktikada olduğunuzu təsəvvür etmək tamamilə mümkün olardı.

Bədəvilər buranı bəzi qayaların formasına görə "Vadi Qəzar" və ya "Kök Vadisi" adlandırırlar.

2002-ci ildən Ağ səhra Misirin Milli Parkı elan edilmişdir.

Milli Parkın ən yüksək nöqtəsi dəniz səviyyəsindən 353 metr yüksəklikdə olan Əl Qəss Əbu Saiddə, ən aşağı nöqtəsi isə 32 metr olan Vadi Hennisdədir. Parkda müxtəlif heyvanlar, o cümlədən nəsli kəsilməkdə olan Rhim ceyranı və həssas Dork ceyranı, həmçinin Barbar qoyunları qorunur.

Səhra ən çox "Sehrli göbələklər"i ilə məşhurdur. Səhrada çoxlu miqdarda təbaşirin olması və güclü küləyin əsməsi, burada nəhəng bloklardan qəribə şəkilləri olan çoxsaylı heykəllərin yaranmasına səbəb olmuşdur. Burada göbələklərə əlavə olaraq, heyvanları, bitki dünyasını və hətta dalğaları xatırladan daş parçaları var.

**"Azərbaycan Ordusu"**

# İdman

## Hidayət Heydərov dünya çempionatının qalibi olub




Azərbaycan cüdoçusu Hidayət Heydərov Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçirilən dünya çempionatında qızıl medal qazanıb.

73 kiloqramda mübarizə aparan idmançı finalda vaxtın bitməsinə 10 saniyə qalmış rəqibi Tatsuki İşiharanı (Yaponiya) ipponla məğlub edib.

Bu, Azərbaycan cüdo tarixində dünya çempionatında qazanılan ikinci qızıl mükafatdır. Bunadək Elxan Məmmədov 2013-cü ildə bu titula yiyələnib.

Tatamiyə çıxan digər Azərbaycan cüdoçuları - Yaşar Nəcəfov, Kamran Süleymanov (hər ikisi 66 kq) və Açelya Toprak (57 kq) yarışı medalsız başa vurublar.

Qeyd edək ki, dünya çempionatı mayın 23-də başa çatacaq.

## Azərbaycan atleti 3-cü dəfə dünya çempionu olub



Azərbaycan paraatleti Lamiyə Vəliyeva Yaponiyanın Kobe şəhərində keçirilən dünya çempionatında birinci olub.

O, T13 kateqoriyasında 100 metr məsafəyə qaçış üzrə finişə 11.94 saniyəyə çataraq dünya çempionu olub.

Qeyd edək ki, bu, 22 yaşlı idmançının ümumilikdə üçüncü dünya çempionluğudur. Lamiyə Vəliyeva ötən il Fransanın paytaxtı Parisdə təşkil edilmiş dünya çempionatında da 100 və 400 metr məsafəyə qaçış üzrə qızıl medal qazanıb.

## Anna Skidan Polşada keçirilən turnirdə qızıl medal qazanıb



Azərbaycan atleti Anna Skidan Polşanın Xujov şəhərində keçirilən Dünya Atletikasının gümüş səviyyəli yarışı olan Yanuş Kusoçinskinin Memorialında qızıl medal qazanıb.

İdmançı çəkic atma yarışında 73.25 metr göstərici ilə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Qeyd edək ki, Anna Skidanın çempionluq yolunda geridə qoyduğu rəqibləri sırasında üçqat Olimpiya çempionu, dünya rekordunun sahibi, əfsanəvi atlet Anita Vlodarçik də olub.

## Azərbaycan boksçuları Macarıstanda 2 medal qazanıblar



Macarıstanın Eger şəhərində gənc boksçular arasında beynəlxalq turnirə yekun vurulub.

Azərbaycan millisi yarışı 2 medalla başa vurub.

Baş məşqçi Elbrus Rzayevin komandasında Abbasqulu Şadlinski (71 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. O, finalda Arpad Jambora 4:1 (30:27, 30:27, 29:28, 29:28, 28:29) hesabı ilə qalib gələrək qızıl medala sahib olub.

Tağı Nəsibov (60 kq) isə həlledici görüşdə özbəkistanlı Abdulaziz Jurakulovla üz-üzə gəlib. Görüş rəqibin 4:1 (28:29, 29:28, 30:27, 30:27, 29:28) hesabı ilə qələbəsi ilə başa çatdığından boksçumuz gümüş medala yiyələnib.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Oruc MUSTAFAYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 277
Nüsxə 4650